**Xalq qəzeti.** - 2019.- 15 dekabr. - № 279. - S. 3.

# Heydər Əliyev və ümumtürk birliyi ideyası

**Dünyamalı Vəliyev,**
AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri,
iqtisad elmləri doktoru

**Bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.**

**Heydər Əliyev**
**Ümummilli lider**

Tarixi təcrübə göstərir ki, zəngin təbii sərvətləri və güclü iqtisadi potensialı olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan və müstəqilliyin başlanğıcında təcrübəsiz rəhbərlərin əlində, necə deyərlər, oyuncağa çevrilən Azərbaycanda bu vəziyyət daha mürəkkəb idi. Ölkəmiz o zaman təkcə dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, üstəlik, daxildən parçalanmaq qorxusu ilə də üzləşmişdi. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü.

1993-cü ildə xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev tərəfindən bu acınacaqlı durum aradan qaldırıldı. Ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməli ulu öndərin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ilə qoyuldu. Dünya standartlarına uyğun olaraq, hazırlanan və ümumxalq referendumu ilə qəbul edilən bu Konstitusiya insan və vətəndaş hüquqlarını və azadlıqlarını birdəfəlik xalqın özünə qaytardı.

Müstəqillik əldə edən dövlətlərin təcrübəsi göstərir ki, suveren sosial-iqtisadi inkişafın müvəffəqiyyəti, ilk növbədə, iqtisadi müstəqilliyin təmin edilməsindən və köhnə iqtisadi sistemin yenisi ilə əvəz olunmasından asılıdır. Ona görə də Konstitusiyada birmənalı şəkildə təsbit edildi: təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına məxsusdur; ölkədə iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir; Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bunların əsasında Azərbaycan dövləti xalqın və hər hansı bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır, mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

O dövrdə Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə çatmaq üçün, ilk növbədə, iqtisadi sabitliyin təmin olunması tələb edilirdi. Çünki 1990-1994-cü illərdə tüğyan edən hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır, əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və maliyyə sabitliyinin təmin olunmasından asılıdır.

Ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün liberallaşdırılma istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanıldı. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi isə qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu. İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini qarşıya mühüm vəzifə kimi qoyurdu. Bununla əlaqədar olaraq 1995–1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati – amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Beləliklə, bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanmasına yol açıldı. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi ilə tamamlandı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zaman ərzində geniş beynəlxalq dəstək qazandı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlandı və ölkəmizə maliyyə yardımı göstərildi. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanan sabitləşdirmə proqramına uyğun olaraq, iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı.

Deyilənləri yekunlaşdıraraq, vurğulamaq lazımdır ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin daha da inkişaf etdirdiyi strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxardı.

Ümummilli lider Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmayıb, onun hüdudlarından kənarda, bütövlükdə türk dünyasında da dərin izlər buraxdı. Bu sahədə gördüyü işlər qısa bir zamanda dahi şəxsiyyəti türk dünyasının danılmaz liderinə çevirdi. Ulu öndər türk dünyasının həmrəyliyinin, bütün sahələrdə intensiv əməkdaşlığının tarixi əhəmiyyətini dərindən dərk edir və qürurla deyirdi: “Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”.

Göründüyü kimi, ulu öndər dərin tarixi köklərə malik türkdilli dövlətlər və xalqlar arasında sıx əlaqələrin qurulmasına, birliyin, dostluğun və qardaşlığın möhkəmlənməsinə və inkişafına hər zaman dəstək göstərib. Xüsusilə Azərbaycan–Türkiyə strateji tərəfdaşlığının əsasında müasir dünyanın yeni çağırışları fonunda dövlətlərimizin və xalqlarımızın eyni mövqedən çıxış etməsi reallığına mühüm önəm verib. Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” və ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” ideyaları Azərbaycan–Türkiyə münasibətlərinin söykəndiyi əsas prinsipə çevrilib.

Ulu öndər zəkası ilə türk dünyasında birliyin formalaşdırılması üçün uzaqgörən addımlar atıb, dahi rəhbərin bilavasitə təşəbbüsü ilə təməli qoyularaq həyata keçirilən qlobal layihələr türkdilli dövlətləri sıx birləşdirib.

Heydər Əliyev türkdilli dövlətlərin başçılarının zirvə görüşlərini keçirməyin zəruri və faydalı olduğunu da daim dəyərləndirir, gücü yalnız birlikdə görürdü. Şəxsi dostluğun, tez-tez keçirilən görüşlərin qarşılıqlı anlaşmaya, ən çətin məsələlərin əlbir səylərlə həll olunmasına kömək göstərdiyini bilən ulu öndər əlbir fəaliyyətin milli maraqlarımıza uyğun nəticələr verəcəyinə inanır, bu tədbirlərin, fikir mübadilələrinin, prezidentlərin ünsiyyətlərinin bütün sahələrdə sıx əlaqələr yaratmasına xidmət edəcəyinə ümid bəsləyirdi.

XX əsrin son onilliyində sovet imperiyasının süqutu, dünyanın bloklara bölünməsinin aradan qaldırılması “soyuq müharibə”yə son qoydu, böyük bir coğrafi bölgədə geosiyasi vəziyyəti kökündən dəyişdi. Bəşəri tərəqqi üçün dünya təsərrüfatı sisteminin bütün həlqələri arasında qarşılıqlı əlaqələrin daha da dərinləşməsi yolunda geniş imkanlar yarandı.

Burada onu da xatırlatmaq yerinə düşər ki, bu coğrafi məkanda Xəzər hövzəsinin zəngin neft yataqlarının mühüm bir hissəsinə nəzarət edən Orta Asiya və Qafqazın yeni müstəqil dövlətləri özünəməxsus yer tutur. Dünyanın neft xəzinəsi sayılan İran körfəzindən sonra öz əhəmiyyətinə görə ikinci yerdə duran sözügedən regionda neft ehtiyatı 30 milyard ton, qaz ehtiyatı isə onlarla trilyon kubmetr təşkil edir. Mütəxəssislərin hesablamalarına görə, XXI əsrin ikinci yarısında orta illik neft hasilatı burada 100 milyon tona çata bilər. Uran və digər mühüm filiz növləri, qızıl ehtiyatı, habelə pambıq parça istehsalı imkanları nəzərə alındıqda regionun əhəmiyyəti daha da artır.

Zəmanəmizdə türk dünyasının möhkəmlənməsi zərurəti dünya sivilizasiyasına böyük töhfələr verən türkdilli cümhuriyyətləri də əhatə edib. Yeni dövrdə yaranan tarixi imkan nəticəsində türkdilli cümhuriyyətlər son illərdə sürətlə inkişaf edərək, qlobal dünyada mühüm nüfuz sahibi olub, öz aralarında siyasi, iqtisadi, mədəni və elmi-texniki sahələrdə əlaqələri əhəmiyyətli dərəcədə genişləndiriblər. Türkdilli cümhuriyyətlərin İşbirliyi Şurası, Parlament Assambleyası, mədəniyyət sahəsində TÜRKSOY və digər sahələrdə sağlam qurumlar yaradılıb.

Türkdilli cümhuriyyətlərin 70 illik bir dövrdə “dəmir pərdələrlə” dünya birliyindən siyasi, iqtisadi və mədəni cəhətdən təcrid olunması və bu ölkələrin əsas aqrar-xammal bazası rolunu oynaması onların müstəqillik əldə etdikdən sonra dünya birliyinə sürətlə və səmərəli inteqrasiyasını zəruriləşdirirdi. Bu amil, eyni zamanda, həmin ölkələrin dünya bazarının tələblərinə uyğunlaşdırılması üçün köklü və təcili tədbirlər görülməsini qarşıya mühüm vəzifə kimi qoyurdu. Buna baxmayaraq, türkdilli cümhuriyyətlərdə regional iqtisadi inteqrasiya ağır siyasi və iqtisadi şərtlər əsasında formalaşıb. Müstəqillik illərində isə bu ölkələrin öz aralarında və dünya dövlətləri ilə iqtisadi əlaqələrinin yenidən qurulması kimi mürəkkəb bir proses başlayıb.

Bu ölkələr xam neft, təbii qaz, sənaye xammalı ilə yanaşı, çox çeşiddə sənaye məhsulları da istehsal etmək və ixraca yönəltmək potensialına malikdirlər. Hər bir ölkənin təbii sərvətlərini hərəkətə gətirərək istehsalın səviyyəsinin yüksəldilməsi və iqtisadi inkişaf yoluna çıxması ciddi şəkildə satış bazarlarının geniş olmasından asılıdır. Bazarların genişlənməsi və dərinləşməsi iqtisadiyyatın səmərəliliyinin yaxşılaşdırılmasına və inkişaf sürətinin artırılmasına səbəb olur. Məsələn, ABŞ-da transmilli şirkətlərin meydana gəlməsi və dünyanın nəhəng şirkətlərinə çevrilməsi çox böyük bazarların təmin etdiyi üstünlüklər sayəsində mümkün olub. Avropa Birliyi də böyük bazarların təmin etdiyi üstünlüklərdən faydalanmaq məqsədi ilə dünyada ilk mükəmməl regional birlik yaradılmasını reallaşdırıb.

Dünya dövlətlərinin çoxillik təcrübəsi göstərir ki, bol təbii sərvətlərə sahib olan türkdilli cümhuriyyətlərin gələcək sosial-iqtisadi inkişafı, onların qlobal və regional proseslərə aktiv və səmərəli şəkildə qatılmasından əhəmiyyətli dərəcədə asılıdır. Qloballaşma dövründə tərəqqinin, sənaye istehsalının artırılmasının və sosial-iqtisadi inkişafın həlledici amili heç də neft və qaz, təbii sərvətlər deyil, intellektual və elmi-texniki ehtiyatların artırılmasıdır. Belə resurslar isə tamamilə aydındır ki, uzun tarixi dövrdə inkişaf edən dünya dövlətlərinin topladığı zəngin təcrübəni hərtərəfli öyrənmək və ondan istifadə etməklə artırıla bilər. Bütün bunlar isə qarşılıqlı iqtisadi əlaqələri inkişaf etdirmək və beynəlxalq əlaqələr sisteminə intensiv qoşulmaqla mümkündür.

Heydər Əliyevin türk dünyasının gələcəyinə böyük inamı nə ilə bağlı idi? Araşdırmalar göstərir ki, böyük iqtisadi və demoqrafik potensiala malik olan türkdilli cümhuriyyətlər intensiv olaraq qlobal iqtisadi sistemə qoşulmağa və onun verdiyi üstünlüklərin bütün parametrlərindən faydalanmağa böyük önəm verirlər. Bununla bərabər burada bir məqamı da unutmaq olmaz. Belə ki, türk dünyasının birləşməsində böyük əngəllərdən biri türk cümhuriyyətləri arasında uzun müddət birbaşa nəqliyyat əlaqələrinin, daha doğrusu, yolların olmaması idi. Bu da türk dünyasını parçalamaq istəyən imperiya dövlətlərinin illər boyu yeritdikləri siyasətin nəticəsi idi. XIX əsrdə Orta Asiya və Qafqaz xalqlarının çar Rusiyası tərəfindən istilasından sonra onların min illərlə qaynayıb-qarışdıqları cənub qonşuları və digər dövlətlər ilə ənənəvi əlaqələri kəsildi. Sivilizasiyaya İbn Sina, Nəsirəddin Tusi və yüzlərlə düha bəxş etmiş bu ölkələrə “Rusiyanın ucqarı” damğası vuruldu. Müstəmləkəçilik siyasətini davam etdirən sovet imperiyasında bu ölkələri dünya ilə birləşdirən yollar yalnız Rusiya torpaqlarından keçirdi. Bu, yalnız görünən yollara deyil, eyni zamanda, görünməyən mədəni-mənəvi yollara da aid idi. Orta Asiya xalqları və Azərbaycan dünya mədəniyyətinə yalnız rus mədəniyyəti ilə qoşulurdu. Dünya klassikləri əsasən rus dilindən tərcümə olunurdu. Bir sözlə, bu xalqların yalnız bir pəncərəsi – Rusiyanın icazə verdiyi pəncərə açıq idi.

Qərbin maddi və mədəni dəyərlərindən geniş yararlanmağa çalışan bu ölkələrin zəngin təbii sərvətləri hazırda Avropanın ehtiyaclarının qarşılanması üçün mənimsənilməyə başlanmış və dünya siyasətinin ana xəttindən birinə çevrilmişdir. Yeni İpək Yolu probleminin aktuallaşması Şərqdən enerjidaşıyıcıların Qərbə asan yolla çatdırılması, yeni kommunikasiya xətlərinin açılması ilə əlaqədardır. Bu amil də türk dünyasının möhkəmlənməsi və dünyada rolunun artması üçün çox faydalıdır.

Vurğulamaq lazımdır ki, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsində Heydər Əliyevin tarixi İpək Yolu layihəsinin həyata keçirilməsində göstərdiyi səy və xidmətlər müstəsna əhəmiyyətə malikdir. Belə bir tarixi layihənin əsas məqsədi isə Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarətdir. Bu, həmin cümhuriyyətlərin 70 illik sovet dövründə yığılıb qalan sosial-iqtisadi problemlərinin həll edilməsi və nəhayət, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin gücləndirilməsi üçün daha geniş perspektivlərin açılması deməkdir. Ulu öndər Heydər Əliyevin iqtisadi siyasəti məhz bu məqsədlərə yönəlmişdi.

Böyük İpək Yolu layihəsinin reallaşdırılmasında və türkdilli cümhuriyyətlərin qırılmaz tellərlə bir-birinə bağlanmasında Bakı–Tbilisi– Ceyhan boru xəttinin müstəsna əhəmiyyəti vardır. Ümummilli lider Heydər Əliyev bütün qüvvəsini həmin xəttin gerçəkləşməsinə yönəltmişdi. Tarix onun bu uzaqgörənliyini qısa bir zamanda təsdiqlədi. Tərəddüd etmədən demək olar ki, Baykal–Amur magistralının tikintisi, qədim İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru xətti layihəsi, Şərq–Qərb nəqliyyat dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu ideyaları Heydər Əliyevin türk dünyasının birləşdirilməsi istiqamətində əvəzsiz xidmətləridir.

Yeri gəlmişkən, ulu öndərin böyük uzaqgörənliklə reallaşdırdığı Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri bu gün beynəlxalq enerji təhlükəsizliyi sistemi baxımından, eləcə də neft ixracı sahəsində respublikamızla uğurlu tərəfdaşlıq münasibətləri olan ölkələr, xüsusilə Mərkəzi Asiya dövlətləri üçün də müstəsna əhəmiyyət kəsb edir. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30 ölkəsinə, qaz isə Gürcüstana, Türkiyəyə, Rusiyaya, İrana və Yunanıstana nəql edilir. İndiyədək “Azəri – Çıraq – Günəşli” (AÇG) layihəsinə 36 milyard dollar sərmayə qoyulub və Prezident İlham Əliyevin iştirakı ilə “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilədək uzadılıb. Bu layihə sayəsində Azərbaycan indiyədək 143 milyard dollar gəlir əldə edib və AÇG üzrə bu vaxtadək 492 milyon ton neft, 161 milyard kubmetr qaz hasil olunub. Cari ilin ötən dövründə isə ölkədə 25,1 milyon ton neft çıxarılıb və bu həcmin 20,9 milyon tonu ixrac edilib.

Bütün türk cümhuriyyətlərində islami dəyərlər və türk ruhu yüksəlir. Türk dünyasının həmrəyliyi və birliyi, bütün dünyada yaşayan türklərin diaspor şəklində təşkilatlanması, mədəni-siyasi, iqtisadi əlaqələrin genişlənməsi ulu öndər Heydər Əliyev ideyalarının və arzularının müasir dünyada reallığa çevrilməsidir.

Türk dünyasının böyük oğlu Heydər Əliyev məhz bunu arzulayıb və bütün şüurlu fəaliyyətini bu vacib işə həsr edib.

Ümummilli lider Heydər Əliyev türk dünyasında, eləcə də beynəlxalq aləmdə tanınan və böyük nüfuz qazanan dahi şəxsiyyətdir. Ulu öndər türk xalqları qarşısında əvəzsiz xidmətlər göstərib, dərin sevgi qazanıb, türk birliyini bütün dünyada tanıtmaqda və nümayiş etdirməkdə böyük xidmətlər göstərib. Şübhəsiz ki, türk dünyası da bunu heç vaxt unutmur və unutmayacaqdır.